*Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının 03 dekabr 2021- ci il tarixli 17 (17) İclas Qərarı ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin hər bir mövzusu üzrə qrant məbləğinin yuxarı həddi**

1.Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 8.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin hər bir mövzusu üzrə qrant məbləğinin yuxarı həddi müvəqqəti olaraq aşağıdakı məbləğlərdə təsdiq edilsin:

1.1.Kiçik qrant müsabiqəsinin hər bir mövzusu üzrə 10000 (on min) manat;

1.2.Orta qrant müsabiqəsinin hər bir mövzusu üzrə 30000 (otuz min) manat;

1.3.Böyük qrant müsabiqəsinin hər bir mövzusu üzrə 50000 (əlli min) manat;

1.4.İnstitusional dəstək müsabiqəsinin hər bir mövzusu üzrə 5000 (beş min) manat.

2. “Səfər qrantları” mövzuları üzrə qrant məbləğinin yuxarı həddi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyin tələbləri əsasında müəyyən olunur.

3. Azərbaycan Respublikasının Nazirlər  Kabinetinin qərarı ilə təsdiq olunmuş Tədbirlər Planı, eləcə də dövlət proqramları və milli fəaliyyət planlarına, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına uyğun olaraq həyata keçirilməsi Agentliyə həvalə olunmuş tədbirlərin icrası məqsədilə ayrı-ayrı istiqamətlər və mövzular üzrə qrant məbləğinin yuxarı həddi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının qərarı ilə müəyyən olunur.